

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Qəzet 1921-ci ildən çıxır

Sayı: 157 (21.567)

24 avqust 2016-cı il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Sığorta işinin mövcud vəziyyəti və qarşıda duran vəzifələrə həsr olunmuş tədbir keçirilib

***Avqustun 23-də Naxçıvan Şəhər İcra Hakimiyyətində Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyi ilə birgə şəhərdə sığorta işinin mövcud vəziyyəti və qarşıda duran vəzifələrə həsr olunmuş tədbir keçirilib.***

Tədbiri giriş sözü ilə açan Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Səfərov son dövrlərdə şəhərdə sığorta sahəsində görülmüş işlərdən danışıb.

Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyinin baş direktoru Hikmət Əsgərov tədbirdə çıxış edərək muxtar respublikamızda sığorta işinin təkmilləşdirilməsi və müasir tələblərə uyğun şəkildə genişləndirilməsi işində 2011-ci il noyabrın 30-da Naxçıvan Muxtar Respublikası Ali Məclisində "Muxtar respublikada sığorta fəaliyyəti və qarşıda duran vəzifələr barədə" keçirilən müşavirənin xüsusi əhəmiyyət daşıdığını vurğulayıb. Bildirilib ki, Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi həyatının dinamik inkişafı sığorta fəaliyyəti sahəsində də özünü göstərməkdədir. Sığortanın insan həyatında əhəmiyyəti artdıqca daha çox vətəndaş öz daşınmaz əmlakını, avtonəqliyyat vasitəsini icbari olaraq sığortalayır, həyat sığortası və ev əmlakı üzrə könüllü sığortalara maraq artır. Tədbir iştirakçılarının diqqətinə çatdırılıb ki, əhali gəlirlərinin artması, iqtisadi fəallığın yüksəlməsi, öz növbəsində, cəmiyyətdə sığorta münasibətlərinin də inkişafını şərtləndirir. İndi insanlar rahat ömür sürməyi, evdə, işdə, yolda qarşılaşa biləcəyi təhlükələrdən sığortalı yaşamağı çox qiymətləndirir, təsadüfi riskli hadisələrə qarşı hazırlıqlı olmağı vacib tələbat kimi hər yerdə görürlər. Belə hadisələr isə insanların yaşadığı hər yerdə gözlənilir və inkişaf səviyyəsindən asılı olmayaraq bütün ölkələrdə rast gəlinə bilər.



Sığorta bədbəxt hadisələrdən dəymiş maddi zərərlərin bərpa olunması üçün bir vasitədir. Bu cəhətə diqqətçəkən baş direktor baş vermiş ayrı-ayrı sığorta hadisələrindən konkret misallar gətirərək bu zaman vaxtında sığortalanmağın üstünlüklərini diqqətə çatdırıb.

Vurğulanıb ki, insan həyatının bir çox sahələrində – işdə və ya yolda baş verən ehtiyatsızlıq və ya diqqətsizlik nəticəsində, habelə texnoloji avadanlıqlarla iş zamanı baş verən qəzalar nəticəsində maddi itkilər yaranır, insan sağlamlığına və həyatına zərər dəyir. Bu zaman sığortasız insanlar maddi cəhətdən çıxılmaz vəziyyətə düşər, başqalarına vurulmuş zərərə görə mülki məsuliyyətini ödəyə bilməzlər. Baş direktor bildirib ki, müxtəlif riskli hadisələrə qarşı vaxtında sığorta olunmaqla dəymiş zərərlərin ödənilməsi mümkündür. Çünki hər sığorta hadisəsinə görə verilən ödənişlər insanlara dəymiş zərərləri aradan qaldırmaq üçün mühüm bir vasitədir. Bu da o deməkdir ki, insanların sağlamlığına, əmlakına və mülki məsuliyyətinə verilən sığorta təminatı ümumi rifaha xidmət edir.

Tədbirdə Naxçıvan şəhərində sığorta sahəsində görülmüş işlər təhlil olunub. Qeyd edilib ki, ötən müddətdə Naxçıvan şəhərində sığortanın müxtəlif növlərinin genişləndirilməsi istiqamətində işlər görülüb, müxtəlif sığorta növləri üzrə bağlanılan müqavilələrin sayında artım olub. Bildirilib ki, ölkəmizdə qüvvədə olan, 24 iyun 2011-ci ildə qəbul edilmiş icbari sığortalar haqqında Azərbaycan Respublikasının Qanununa əsasən, vətəndaşlara və sahibkarlara məxsus daşınmaz əmlakın, avtonəqliyyat vasitələrinin, mülki məsuliyyətin icbari qaydada sığortalanması müasir dövrün tələblərindəndir. Həmçinin ev əmlakı sığortası, fərdi qəza sığortası və digər könüllü sığorta növlərinin də əhəmiyyəti qeyd olunub, qarşıda duran vəzifələrdən danışılıb. Tədbirdə Naxçıvan şəhərində sığorta sahəsində görülmüş işlərlə bərabər, icbari qaydada sığorta olunmalı olan daşınmaz əmlakın icbari sığortası, daşınmaz əmlakın istismarı ilə bağlı mülki məsuliyyətin icbari sığortası, avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə hələ də sığorta olunmayan hüquqi və fiziki şəxslər qaldığı bildirilib.

Qeyd olunub ki, mövcud qanunlara əsasən icbari qaydada sığortalanan hər bir sığorta obyekti sığortaya cəlb edilməlidir. Baş direktor ayrı-ayrı sığorta növləri üzrə Naxçıvan şəhərində görülmüş işlərə diqqət çəkərək bildirib ki, qarşıya qoyulmuş vəzifə bu sahədə maksimum nəticə əldə olunması və bunun üçün əhali arasında sığorta maarifləndirilməsi işlərinə diqqətin artırılmasıdır.

Tədbirdə Naxçıvan Şəhər Polis İdarəsinin Dövlət Yol Polisi bölməsinin rəisi Rəşadət Əliyev, Fövqəladə Hallar Nazirliyinin Yanğından Mühafizə İdarəsinin Naxçıvan Şəhər Şöbəsinin rəis müavini Nəsimi Hüseynov Naxçıvan şəhərində icbari sığortaların vəziyyəti üzrə məlumat veriblər.

Tədbirə Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Səfərov yekun vurub.

✍ **Əli CABBAROV**

***Muxtar respublikamızda iqtisadi fəallığın artması, sahibkarlıq fəaliyyətinin dəstəklənməsi və məşğulluğun təmin olunması sahəsində həyata keçirilən tədbirlər əhali gəlirlərinin artmasına səbəb olur ki, bu da həyat səviyyəsinin davamlı olaraq yüksəlməsinə imkan yaradır. Sosial-iqtisadi inkişafın mühüm keyfiyyət göstəricisi olan həyat səviyyəsinin daim yüksəlməsi meyli, ümumilikdə, regional inkişafın da fərqləndirici xüsusiyyətlərindəndir.***

## Əhali gəlirlərinin artımı həyat səviyyəsini yüksəldir

Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsindən aldığımız məlumata əsasən, 2016-cı ilin yanvar-iyul aylarında muxtar respublikada əhalinin gəlirləri 2015-ci ilin müvafiq dövrü ilə müqayisədə 2,2 faiz artaraq 998 milyon 783 min 600 manat, onun hər bir nəfərə düşən həcmi isə 1,1 faiz yüksələrək 2240,9 manat təşkil edib. Təkcə cari ilin yanvar-iyun aylarında muxtar respublika iqtisadiyyatında bir işçiyə hesablanmış orta aylıq əməkhaqqının məbləği 406,8 manat təşkil edib ki, bu, əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 3,6 faiz artım deməkdir.

Gəlirlərin artması istehlak bazarındakı xərcləmələrə, əhalinin onlara göstərilən pullu xidmətlərdən istifadə səviyyəsinə və fərdi mənzil tikintisinə də öz təsirini göstərib. Belə ki, 2016-cı ilin yanvar-iyun aylarında muxtar respublikanın istehlak bazarında əhaliyə 662 milyon 77 min 900 manat həcmində istehlak malları satılıb və pullu xidmətlər göstərilib ki, bu da 2015-ci ilin müvafiq dövrü ilə müqayisədə 1,7 faiz çox deməkdir. Yaxud, 2016-cı ilin yanvar-iyul aylarında informasiya və rabitə xidmətlərinin həcmi 28 milyon 714 min manata yaxın olub ki, bu da 2015-ci ilin müvafiq dövrü ilə müqayisədə 3,7 faiz çoxdur. Bu müddət ərzində mobil rabitə xidmətlərinin həcmi 23 milyon 691 min 600 manat olmaqla, bir il öncəki göstəricini 1,7 faiz üstələyib.

Əhalinin həyat səviyyəsinin yaxşılaşması fərdi yaşayış evlərinin tikintisinə də müsbət təsir göstərib. Belə ki, 2016-cı ilin ilk altı ayı ərzində muxtar respublikada əhalinin şəxsi vəsaiti hesabına, ümumilikdə, 232 min 833 kvadratmetr yaşayış sahəsi istifadəyə verilib ki, bu da 2015-ci ilin müvafiq dövründəki göstəricini 0,9 faiz üstələyir.

Əhali gəlirlərinin artırılmasında səmərəli məşğulluğun və özünüməşğulluğun təmin edilməsinin mühüm əhəmiyyəti vardır. Belə ki, 2016-cı ilin ilk altı ayı ərzində muxtar respublikada 1811 yeni iş yeri yaradılıb ki, bunun da 1768-i və ya 97,6 faizi daimi iş yerləridir. Sahibkarlıq fəaliyyətinin də bu sahədəki rolu çox mühümdür. Muxtar respublikamızda sahibkarlığın genişləndirilməsi üçün göstərilən dövlət dəstəyi də bu məqsədə xidmət edir. Bu baxımdan cari ilin yanvar-iyul ayları ərzində muxtar respublikada təsərrüfat subyektləri üçün verilən kreditlərin həcmi diqqəti cəlb edir. Belə ki, 2016-cı ilin yanvar-iyul aylarında muxtar respublikanın bank və kredit təşkilatları tərəfindən hüquqi və fiziki şəxslərə 21 milyon 937 min 200 manat məbləğində kreditlər verilib. Ümumilikdə, 2016-cı ilin ilk altı ayında muxtar respublikada 12 hüquqi və 1223 fiziki şəxs qeydiyyata alınıb.

## Şərur rayonunda kompleks quruculuq işləri davam etdirilir

***Şərur rayonu özünün yeni inkişaf mərhələsinə qədəm qoyub. Son illər rayonda həyata keçirilən genişmiqyaslı quruculuq tədbirləri, reallaşdırılan iqtisadi layihələr bölgəyə böyük yeniliklər gətirib, insanların həyat səviyyəsi xeyli yüksəlib. Rayon mərkəzi, bölgənin kəndləri füsunkar bir gözəlliyə qovuşub, yenilənib, müasirləşib. Kəndlə şəhər arasındakı fərqin aradan qaldırılması istiqamətində həyata keçirilən tədbirlər bəhrələrini verib. Kənd yaşayış məntəqələrində müasir infrastruktur yaradılıb.***



2016-cı ilin ötən dövrü ərzində rayonda tikinti-quruculuq və abadlıq işləri davam etdirilib. Bu dövrdə Oğlanqala kəndində məktəb, kənd və xidmət mərkəzləri, Xanlıqlar kəndində "İmamzadə" ziyarətgahı, Mahmudkənddə futbol meydançası və Şərur şəhərində şadlıq sarayı tikilərək istifadəyə verilib. Bunlarla yanaşı, Fizika-Riyaziyyat Təmayüllü Liseyin və Yengicə kəndində bir müharibə əlili üçün yaşayış binasının da tikintisi başa çatdırılıb.

Hazırda rayonun Çəmənli, Arbatan və Arpaçay kənd yaşayış məntəqələrində kompleks quruculuq tədbirləri həyata keçirilir. Çəmənli kəndində yaxın aylarda yeni məktəb, kənd və xidmət mərkəzlərinin binalarından istifadə olunacaq. Kənd tam orta məktəbinin binası 360 şagird yerlik olmaqla, 3 mərtəbədən ibarətdir. Tədris müəssisəsinin yeni binasında müəllim və şagirdlərin ixtiyarına 20 sinif otağı, kimya, biologiya və fizika laboratoriyaları, 2 elektron lövhəli sinif, kompüter otağı, hərbi və şahmat kabinələri, idman zalı və bufet veriləcək. Binada əsas tikinti işləri, demək olar ki, başa çatıb. Hazırda binanın daxilində və fasad hissəsində suvaq işləri aparılır.

Dövlət qurumlarının fəaliyyət göstərəcəyi kənd mərkəzi ikimərtəbəli olacaq. Kənd mərkəzinin binasında da əsas tikinti işləri başa çatdırılıb, kommunikasiya xətləri çəkilib, qapı və pəncərələr salınıb. Hazırda boyaq işləri aparılır, dəhlizlərin döşəməsinə və mərtəbələrarası pilləkənlərə travertin döşənir. Kənd mərkəzində inzibati ərazi dairəsi üzrə nümayəndəliyin, bələdiyyənin, Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatının, kitabxananın, klubun, poçtun, ATS-in, səhiyyə, baytarlıq və polis məntəqələrinin fəaliyyətinə hərtərəfli şərait yaradılacaq.

Çəmənli sakinlərinə daha bir hədiyyə olan birmərtəbəli xidmət mərkəzində sənaye və təsərrüfat malları mağazaları, bir neçə xidmət sahəsi yerləşəcək. Bu quruculuq tədbirlərini Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Şərur Rayon İdarəsinin inşaatçıları həyata keçirirlər.

"Artay" LTD Şirkətinin inşaatçıları isə rayonun Arbatan kəndində məktəb, kənd və xidmət mərkəzləri üçün yeni binaların inşası ilə məşğuldur. Kənd mərkəzinin və 234 şagird yerlik məktəbin binaları iki, xidmət mərkəzinin binası isə birmərtəbəlidir. Aprel ayından tikintisinə başlanan obyektlərdə çalışan inşaatçıların texniki təhlükəsizliyi təmin edilib, obyektlərə daimi su xətti çəkilib, inşaat işlərinin keyfiyyətlə aparılması üçün hərtərəfli şərait yaradılıb.

Adıçəkilən tikinti kollektivinin bir qrup inşaatçısı isə rayonun Arpaçay kəndində kənd və xidmət mərkəzlərinin tikintisi ilə məşğuldur.

Obyektlərin hamısında yerli tikinti materialından istifadəyə və keyfiyyət amilinə üstünlük verilir.

Quruculuq tədbirləri çərçivəsində rayonda yol infrastrukturunun yenilənməsi də diqqət mərkəzində saxlanılıb. Belə ki, Şərur Rayon Yol Təmir-Tikinti İdarəsinin inşaatçıları tərəfindən 5,4 kilometrlik Çərçiboğan-Arbatan, 6,7 kilometrlik Dərvişlər-Arpaçay-Çəmənli kənd yolları genişləndirilib, su keçidləri yenilənib, asfalt döşənməsinə hazır vəziyyətə gətirilib.

**Xəbərlər şöbəsi**

# Naxçıvan Biznes Mərkəzi fəaliyyətini genişləndirir



***Artıq üç ildir ki, muxtar respublikanın paytaxtı Naxçıvan şəhərində yeni biznes əlaqələrinin qurulması və işgüzar görüşlərin keçirilməsi, sahibkarların maarifləndirilməsi, muxtar respublikada istehsal olunan məhsulların nümayiş etdirilməsi üçün ideal bir məkan – Naxçıvan Biznes Mərkəzi fəaliyyət göstərir. Naxçıvan şəhərinin bütün ünvanlarına rahat çıxışı olan bu məkanda sahibkarların aktiv iş fəaliyyəti üçün hərtərəfli şərait yaradılıb. 2013-cü ildə istifadəyə verilən mərkəzin əsas fəaliyyət istiqamətləri biznesin inkişafı, sahibkarlar arasında işgüzar əlaqələrin gücləndirilməsi, müxtəlif tədbirlərin, beynəlxalq konfransların, forum və seminarların keçirilməsi, yerli istehsal məhsullarının, əl işi və sənət əsərlərinin sərgi-satışının təşkilidir. Hazırda mərkəzdə müasir avadanlıqlarla təchiz edilən 100 nəfərlik iclas və 500 nəfərlik konfrans zalları və eyni vaxtda 4 dildə sinxron tərcümənin aparılması üçün otaq mövcuddur.***

Ötən günlərdə mərkəzin fəaliyyəti və burada yaradılan pavilyonlarla tanış olmaq üçün adıçəkilən ünvanda olduq. İlk olaraq qeyd edək ki, burada qurulan pavilyonlarda muxtar respublikanın son illərdə keçdiyi inkişaf yolu, sosial-iqtisadi göstəriciləri, infrastruktur quruculuğu istiqamətində görülən işlər, özəl sektorun inkişafı naminə həyata keçirilən tədbirlər öz əksini tapıb. Stendlərdə qeyd edilib ki, ötən müddət ərzində 11 mindən çox sosial infrastruktur obyekti, o cümlədən təhsil, səhiyyə, mədəniyyət, idman müəssisələri, elektrik stansiyaları, körpülər tikilib, yerli və magistral əhəmiyyətli yollar salınıb. Muxtar respublikada 858-dən çox istehsal sahəsi yaradılıb, 2009-2016-cı illər ərzində 66 mindən çox yeni iş yeri açılıb. Bu ilin 1 iyun tarixinə olan məlumata görə, muxtar respublikada 365 növdə, 1152 çeşiddə məhsul istehsalına nail olunub. Bunun hesabına 343 növdə məhsula olan tələbat tam təmin edilib.

Mərkəzin sərgi salonu ilə tanışlıqdan sonra isə muxtar respublikada son illərdə özəl sektorun keçdiyi yol barədə geniş məlumata malik olmaq mümkündür. 21 il bundan öncə istehsalın, demək olar ki, tamamilə dayandığı muxtar respublikada nə qədər əhəmiyyətli işlər görüldüyünü bu salonda qurulan pavilyonların zənginliyi də təsdiq edir. Burada muxtar respublikada fəaliyyət göstərən bir neçə şirkətin 300-dən çox növdə məhsulunun, eləcə də xalq sənətkarları tərəfindən hazırlanan nümunələrin sərgi və satışı təşkil olunub.

Pavilyonlar arasında ən diqqəti çəkəni "Gəmiqaya Holdinq" Şirkətlər İttifaqına aiddir. Burada adıçəkilən holdinqin tərkibində olan sənaye müəssisələrinin istehsal etdiyi məhsullar sərgilənir. Qeyd edək ki, holdinq iri sahibkarlıq subyekti olmaqla, tikinti materiallarının, mebel və mebel ləvazimatlarının, tibb sahəsində istifadə olunan müxtəlif qazların, metallurgiya sənayesinin, kənd təsərrüfatı məhsullarının istehsalı və emalı, həmçinin iri heyvandarlıq təsərrüfatlarının yaradılması və turizm sektoru üzrə ixtisaslaşıb. Pavilyonda muxtar respublikanın mövcud resursları hesabına istehsal edilən tikinti materialları, sement, kərpic, daş məhsulları, tibb sahəsində istifadə olunan müxtəlif qazlar və digər məhsullar nümayiş etdirilir. Burada onu da öyrəndik ki, bu məhsullar yerli tələbatı tamamilə ödəyir. Burada nümunələri olan daş məhsulları, sement, mebel məmulatları İran, Türkiyə və Gürcüstan respublikalarına ixrac edilir. Bundan başqa, nümayiş etdirilən məhsullar arasında holdinqin tərkibinə daxil olan qida sənayesi üzrə ixtisaslaşmış müəssisələrdə istehsal edilən unlu-qənnadı məmulatları, yerli xammal əsasında hazırlanan müxtəlif meyvə şirələri, şərablar da vardır. Holdinq üçün qurulan pavilyonun bəzəyi isə "Badamlı" mineral süfrə suyudur.

Mərkəzdə qurulan pavilyonlarda müxtəlif sənaye sahələri üzrə ixtisaslaşmış müəssisələrin istehsal etdiyi geyim formaları, müxtəlif məmulatlar, uşaq bezi, tibbi spirt, povidion yod məhsulları, həmçinin yarımfabrikat mebel məmulatları, müxtəlif ayaqqabılar, plastik məişət əşyaları, polietilen məmulatlar, boyalar, elektrik naqilləri nümayiş etdirilir. "Naxçıvan Duz İstehsalı", "Araz-3", "Naxçıvan Məhsulları", "Ləzzət Qida Sənaye", "Nuhçıxan" Məhdud Məsuliyyətli cəmiyyətlərinin, "Naxçıvan Aqrolizinq", "Babək Sirab" və Naxçıvan "Təchizat" Açıq Səhmdar cəmiyyətlərinin, 9 modeldə yük və minik avtomobili istehsalını həyata keçirən "Naxçıvan Avtomobil Zavodu"nun, "Dizayn Holdinq", "Cahan Holdinq" Kommersiya Şirkətləri ittifaqlarının, "Dekor Qrup"un və digər müəssisələrin istehsal etdiyi məhsullar sərginin ən görkəmli yerlərini bəzəyir. Bundan əlavə, "Karbon Qazı Zavodu" Məhdud Məsuliyyətli Cəmiyyətinin istehsal etdiyi karbon qazı və quru buz, "Naxçıvan Xalça" ASC-nin istehsal etdiyi məhsullara muxtar respublikanın qonaqları tərəfindən böyük maraq göstərilir.






Mərkəzin sərgi salonuna gələnlərin diqqətini çəkən stendlərdən biri də muxtar respublikanın sənaye xəritəsidir. Bu xəritədə muxtar respublikamızda müxtəlif sahələr, o cümlədən maşınqayırma, kimya, tikinti, energetika, mədənçıxarma, metallurgiya, mebel, yeyinti və aqrar sənayesi, soyuducu anbarlar, istixana kompleksləri, heyvandarlıq, quşçuluq, balıqçılıq, arıçılıq, bağçılıq, üzümçülük və limonçuluq təsərrüfatları olmaqla, 858 istehsal müəssisəsi haqqında məlumatlar yerləşdirilib. Mərkəzdə həmçinin Bəhruz Kəngərli məktəbinin davamçıları olan muxtar respublika rəssamlarının rəsm əsərləri və xalqımızın qədim sənətkarlıq sahələrindən olan xalçaçılıq, xalq yaradıcılığı nümunələri də sərgilənir.

Mərkəzin direktoru Vüsal Gülməmmədovla söhbət zamanı bildirdi ki, sahibkarların məsləhət, informasiya təminatının gücləndirilməsi və işgüzar əlaqələrinin inkişafı istiqamətində onların təşəbbüskarlığı və hüquqi biliklərinin artırılmasına, yeni iqtisadi şəraitdə müasir təcrübənin mənimsənilməsi və yüksəldilməsinə istiqamətlənmiş kompleks tədbirlərin reallaşdırılması da sahibkarlıq sektorunun inkişafının mühüm istiqamətlərindəndir. Bununla əlaqədar sahibkarların təcrübəkeçmə, ixtisasartırma tələblərinin ödənilməsi və yenidən hazırlanması, onların maarifləndirilməsi, hüquqi və iqtisadi biliklərinin artırılması sahəsində işlərin təşkili və tənzimlənməsinə də bu gün muxtar respublikada xüsusi diqqət yetirilir.

Muxtar respublikada gənclərin məşğulluğunun təmin edilməsinə və sosial problemlərinin həllinə, sahibkarlıq təşəbbüslərinin dəstəklənməsinə böyük qayğı göstərilməsi diqqətdə saxlanılıb. Mərkəzdə Naxçıvan şəhərində və regionlarda sahibkarlıq fəaliyyəti ilə məşğul olan hüquqi və fiziki şəxslərin, sahibkarlıq fəaliyyətinə yeni başlamaq istəyənlərin maarifləndirilməsi, onlara zəruri nəzəri biliklərin və beynəlxalq təcrübənin, vərdişlərin və bacarıqların aşılanması istiqamətində də məqsədyönlü işlər görülür, gənclərin sahibkarlıq fəaliyyətinə təşviq olunması, onların fəaliyyətinin sistemli, planauyğun və davamlılığının təmin olunması üçün bir sıra tədbirlər həyata keçirilir, sahibkarlıq subyektlərinə tədris-metodiki, innovasiya və məsləhət xidmətləri göstərilir.

Müsahibim onu da bildirdi ki, mərkəzdə sərgi-satışı təşkil edilən dekorativ-tətbiqi sənət əsərlərinə, şüşə, ağac və mis üzərində döymə işlərinə, milli geyim nümunələrinə böyük maraq göstərilir. Xüsusilə xarici ölkələrdən gələn qonaqlar bu nümunələri almaqda, hədiyyəlik əşya kimi öz ölkələrinə aparmaqda həvəs nümayiş etdirirlər. Sərgilənən əl işlərinin satışının həyata keçirilməsi isə el sənətkarlarının fəaliyyətinin stimullaşdırılmasında mühüm rol oynayır.

Ümumiyyətlə, bu gün tam əminliklə demək olar ki, Naxçıvan Biznes Mərkəzi son illərdə muxtar respublika sənayesinin, xalq sənətkarlığının, bir növ, güzgüsünə çevrilib. Buraya gələn hər bir xarici qonaq heç bir istehsal müəssisəsinə getmədən muxtar respublikanın özəl sektoru haqda dolğun məlumat ala bilir. Burada nümayiş etdirilən, yüksək keyfiyyəti ilə seçilən, nəfis tərtibatla qablaşdırılan, insan əməyinin, göz nurunun, alın tərinin nəticəsi olan hər bir məhsul son illərdə doğma yurdumuzda sahibkarlığa göstərilən dövlət qayğısının bariz nümunəsidir.

**✍ Səbuhi HÜSEYNOV**

# "Cahan" Ticarət Kompleksində nümunəvi xidmət üçün hər cür şərait yaradılıb

***Naxçıvan Muxtar Respublikasında əhaliyə yüksəkkeyfiyyətli məhsullar təklif olunmaqla nümunəvi xidmət etmək imkanlarına malik müasir ticarət mərkəzləri tikilib istifadəyə verilməsi son illərdə qədim diyarımızda sosial-iqtisadi inkişafın dinamik xarakter aldığının bariz ifadəsidir. Belə müəssisələrdən biri də "Cahan" Məhdud Məsuliyyətli Cəmiyyətinin Naxçıvan şəhərinin Əziz Əliyev küçəsində fəaliyyət göstərən "Cahan" Ticarət Kompleksidir.***

Ticarət kompleksinin əsas binasında müxtəlif mağazaların yerləşdirilməsi, həmçinin əhaliyə bank xidmətləri də daxil olmaqla, bir sıra xidmətlərin göstərilməsi üçün hər cür şərait yaradılıb. Burada müştərilərə yerli və xarici firmaların istehsalı olan uşaq, kişi və qadın geyimləri təqdim olunur. Əsas binanın ətrafında yerləşən dairəvi mağazalarda isə ərzaq məhsulları, elektrik avadanlıqları, mətbəx əşyalarının satışı həyata keçirilir, əczaxana, bərbərxana və valyutadəyişmə məntəqəsi fəaliyyət göstərir.

"Cahan" Ticarət Kompleksi fəaliyyətə başladığı dövrdən ötən müddət ərzində ticarət mərkəzinə gələnlərin sayı getdikcə artmaqdadır. Digər sahibkarlıq subyektləri kimi, "Cahan" Məhdud Məsuliyyətli Cəmiyyəti də muxtar respublikamızda yaradılan əlverişli biznes mühitindən bəhrələnib, fəaliyyətini daha da genişləndirib. Kompleksin ərazisində müxtəlif təyinatlı mağazaların və digər xidmət sahələrinin fəaliyyət göstərdiyi ikimərtəbəli yeni korpus tikilib istifadəyə verilib. Kompleksin əsas binasında yenidənqurma işləri aparılıb, mağazalarda satışa çıxarılan müxtəlif çeşiddə malların və ticarət mərkəzinin xidmətindən istifadə edən vətəndaşların məlumatlandırılmasını təmin etmək məqsədilə ticarət kompleksində ayrı-ayrı yerlərdə monitorlar quraşdırılıb. Layihəyə uyğun olaraq, kompleksin əsas binasının ətrafında yeni mağaza və müasir avadanlıqlarla təmin olunmuş kafeteriyalar istifadəyə verilib. Eyni zamanda ticarət kompleksinin ətrafında abadlıq işləri aparılıb, avtomobil dayanacağı yaradılıb.

Yeni korpusda dəmir konstruksiya və hörgü işləri aparılıb, ayrı-ayrı mağazalara avtomatik qapılar quraşdırılıb. Həmçinin yeni korpus və mağazalar müasir isitmə, soyutma və havalandırma sistemi ilə təmin edilib, hər bir mağazaya telefon xətti çəkilib. Burada sahibkarlara və ticarət mərkəzinin xidmətindən istifadə edən vətəndaşlara internetdən istifadə etmək imkanı yaradılıb. Bundan başqa, ticarət kompleksinin əsas binasının fasad hissəsi dizayn elementləri ilə zəngin olan tikinti materialları və travertin üzlük plitələrlə bəzədilib.

Əhalisinin 70 faizdən çoxu kəndlərdə yaşayan muxtar respublikamızda kənd təsərrüfatı məhsullarının istehsalı üçün hərtərəfli şərait yaradılıb. Kənd təsərrüfatı məhsulları istehsalı ilə məşğul olan sahibkarların müraciətləri nəzərə alınaraq ticarət kompleksinin ərazisində fəaliyyət göstərən kənd təsərrüfatı məhsullarının satışı bazarında da müasir korpus tikilərək sahibkarların istifadəsinə verilməsi zərurəti yaranıb. Bu məqsədlə "Cahan" Ticarət Kompleksinin ərazisində yerləşən kənd təsərrüfatı məhsullarının satışı bazarında əsaslı təmir və yenidənqurma işləri aparılıb. Mövcud su, kanalizasiya, elektrik və qaz xətləri yenilənib, müasir işıqlandırma sistemi qurulub. Həmçinin ət və ət məhsullarının satışı üçün ayrı-ayrı mağazalar istifadəyə verilib. Burada ilboyu satılan məhsullarla yanaşı, mövsümlə əlaqədar artan tələbat da nəzərə alınıb, həmin məhsulların ticarət kompleksində rahat şəkildə satılması üçün lazımi şərait yaradılıb.



Bir neçə alıcı ilə görüşüb onlardan ticarət kompleksində göstərilən xidmətlərə münasibətlərini öyrəndik.

Nazim Səfərov: – "Cahan" Ticarət Kompleksində göstərilən xidmətdən razıyam. Əvvəllər kənd təsərrüfatı məhsullarının satışı üçün müvafiq yerin olmaması narazılıq doğururdu, bu məhsulların harada gəldi satılması həmin ərazidə antisanitariya vəziyyəti yaradırdı. Kənd təsərrüfatı məhsullarının satışı bazarının istifadəyə verilməsi ilə bu problem aradan qaldırılıb.

Mahir Qasımov: – İstehsal etdiyimiz kənd təsərrüfatı məhsullarının alıcı problemi yoxdur. Bu məhsulların satışı bazarında mövsümlə əlaqədar olaraq yerlər ayrılıb ki, biz də burada məhsullarımızı satırıq. Özü də münasib qiymətə.

Məhərrəm Cəfərov: – Uzun illərdir ki, kənd təsərrüfatı məhsullarının istehsalı və satışı ilə məşğul oluram. Əvvəllər qışın soyuğu, yayın istisində, açıq hava şəraitində məhsullarımızı satıb minbir əziyyətlə üzləşirdiksə, yeni istifadəyə verilən kənd təsərrüfatı məhsullarının satışı bazarı bu problemi nəinki aradan qaldırdı, üstəlik, yüksək şərait də yaradıldı. Belə şəraitin yaradılması məhsul istehsalının genişləndirilməsinə marağı artırdı. Elə bu il bazarda müşahidə olunan məhsul bolluğu da buna əyani sübutdur.

**✍ Kərəm HƏSƏNOV**

## Naxçıvan abidələrində yayılan boyalı keramika Ubeyd mədəniyyətinin təsiri ilə ortaya çıxmışdır

***Son illər aparılan araşdırmalar zamanı Ubeyd mədəniyyəti ilə bağlı bir sıra yeni faktlar aşkar olunmuşdur. Aparılan araşdırmalar göstərir ki, bu mədəniyyətin Naxçıvana müəyyən təsiri olub. Qeyd etmək lazımdır ki, bir sıra tədqiqatçılar İkiçayarasında yayılan Ubeyd mədəniyyətini türkdilli şumer tayfaları ilə əlaqələndirmişlər. Onların təsiri Azərbaycanın digər regionlarında da izlənilmişdir.***

Bu barədə AMEA-nın müxbir üzvü, tarix elmləri doktoru Vəli Baxşəliyev deyir ki, türk xalqlarının Azərbaycan ərazisində e.ə. IV minillikdən başlayaraq məskunlaşmasına dair xeyli arxeoloji və onomastik materiallar mövcuddur. Filoloq alimlərimizin tədqiqatları zamanı şumer-türk paralelləri, e.ə. III-II minilliyə aid yazılı qaynaqlarında turukki, su, subar tayfaları haqqında verilən məlumatlar, arxeoloji qazıntılar zamanı şumerlərin Azərbaycanda məskunlaşmasına dair aşkar olunan faktlar da bunu təsdiq edir. Şumerlərin türkdilli olması ilə bağlı bir sıra Avropa alimlərinin fikirləri sonradan siyasi məqsədlər üçün inkar olunmuşdur.

Naxçıvan ərazisində Eneolit mədəniyyəti 1951-ci ildə Osman Həbibullayevin apardığı qazıntılar zamanı aşkar edilmişdir. O zaman bu, Qafqazda ilk tapıntı idi. Ondan sonra bu dövrə aid xeyli arxeoloji abidə aşkara çıxarılmışdır. Müəyyən edilmişdir ki, saman qarışığından hazırlanmış keramika Araz çayının orta axarlarından başlayaraq Muğan və Mil düzləri daxil olmaqla, Xəzər dənizinədək geniş bir ərazidə yayılmışdır. Bu mədəniyyət bəzi tədqiqatçılar tərəfindən “Kültəpə mədəniyyəti” adlandırılmışdır. Lakin bu mədəniyyətin meydana gəlməsi, inkişafı ilə bağlı problemlər tamamilə həll edilməmişdir. Məlum olduğu kimi, I Kültəpənin alt təbəqəsində xalaftipli çölmək aşkar olunmuşdur. Buna əsasən, bəzi sovet alimləri Eneolit mədəniyyətinin Şimali Mesopotamiyadan gətirildiyini ehtimal etmişlər. Uzun müddət araşdırmalar aparılmasına baxmayaraq, Qafqazın, o cümlədən Azərbaycanın Eneolit mədəniyyəti də tam şəkildə dəyərləndirilməmişdir. Bəzi maddi-mədəniyyət nümunələri, xüsusilə I Kültəpənin alt təbəqəsindən aşkar olunan keramika tədqiqatçılar tərəfindən Xalaf-Ubeyd tipi kimi xarakterizə olunmuşdur. Osman Həbibullayevin fikrinə görə, I Kültəpədən aşkar edilən boyalı keramikanın bir qismi Mesopotamiyadan gətirilmiş, bir qismi isə yaşayış yerində idxal olunmuş mallara bənzədilərək hazırlanmışdır.

Vəli Baxşəliyev qeyd edir ki, İdeal Nərimanov Naxçıvanın, Mil və Muğan düzlərinin keramikasını araşdıraraq belə bir nəticəyə gəlmişdir ki, bu keramikanın mənşəyi Şərqi Anadolu ilə deyil, Şimal-Qərbi İranla bağlıdır. Onun fikrincə, Naxçıvanda Xalaf mədəniyyətindən sonra Ubeyd mədəniyyətinə mənsub tayfalar məskunlaşmışlar. O, Leylatəpə yaşayış yerini aşkar etdikdən sonra bu yaşayış yerinin Mesopotamiya tayfaları, xüsusilə Ubeyd-Uruk tayfaları tərəfindən salındığını qeyd etmişdir. Hazırda tədqiqatçıların bir qrupu tərəfindən Leylatəpə tipli abidələr Ubeyd mədəniyyətinə, digərləri tərəfindən isə Uruk mədəniyyətinə aid edilməkdədir. Son illər Neolit və Eneolit abidələrinin tədqiqinə əcnəbi tədqiqatçılar da qoşulmuşlar. Onların bəziləri irəli sürülən hipotezləri qəbul etmiş, digərləri isə onu rədd etmişlər. Barbara Helvingin fikrinə görə, Şimali Ubeydin arealı Urmiya gölündən şimala doğru yayılmamışdır. Amma bəzi tədqiqatçılar Xalaf keramikasının onun əsas mərkəzindən şimala və şimal-şərqə doğru yayıldığını qeyd etmişlər. Stephan Kroll isə yazır ki, Azərbaycanın Neolit və Eneolit dövründə özünəməxsus ənənələri olsa da, Son Eneolit dövründə Urmiya hövzəsi Ubeyd ənənələrinin buraya daxil olması ilə xarakterizə edilir.

Naxçıvanın Eneolit keramikası, başlıca olaraq, qırmızı rəngdə bişirilməsi ilə fərqlənir. Qırmızı rəngli keramika Naxçıvan abidələrinin, o cümlədən Yanıq Təpə, Göy Təpə, I Kültəpə və digərlərinin xarakterik xüsusiyyətidir. Qırmızı rəngli, cilalı keramika, həmçinin Urmiya hövzəsinin şərq rayonlarında da yayılmışdır. İ.Nərimanovun fikrinə görə, qırmızı rəngli keramika yerli istehsalın məhsulu olmuşdur. Abidələrin araşdırılması göstərir ki, saman qarışıq keramika Naxçıvanda Neolit dövründən istehsal edilmişdir. Bu tip keramika I Kültəpədə aparılan araşdırmalar zamanı aşkar olunmuşdur. Qeyd etmək lazımdır ki, burada, başlıca olaraq, sarı və qırmızı rəngdə bişirilmiş keramika yayılmışdır. Bununla belə, boz, qəhvəyi və qara rəngli keramikaya da rast gəlinmişdir. Saman qarışığı olan qırmızı rəngdə bişirilmiş keramika Naxçıvanda Son Eneolit dövrünədək davam etmişdir. Son Eneolit dövründə əvvəlki dövrlərə nisbətən keramika məmulatının çeşidi artmışdır. Məlum olduğu kimi, Azərbaycan abidələrində, o cümlədən Naxçıvanda daraqşəkilli ornamentlə naxışlanmış keramika Son Eneolit dövründə meydana çıxır. Amma 2010-cu ildə aşkar olunan Sirab abidələrində daraqşəkilli ornamentlə naxışlanmış keramika yoxdur. Sirab ətrafında Eneolit dövrünə aid mövsümi yaşayış yerlərinin aşkar olunması Eneolit dövrünün erkən və orta mərhələsindən başlayaraq yarımköçəri maldarlığın inkişaf etdiyini göstərir. Bu abidələrin keramikası xüsusiyyətinə görə I Kültəpənin keramikasından fərqlənmir. Bu, keramika istehsalında mədəni varisliyi izləməyə imkan verir.

Araşdırmalar I Kültəpənin boyalı keramikasının Xalaf mədəniyyətinin təsiri ilə meydana çıxdığını göstərir. Azərbaycan abidələrində boyalı keramikanın meydana gəlməsini tədqiqatçılar Mesopotamiya mədəniyyətləri ilə əlaqələndirirlər. Bəzi tədqiqatçılar bunu əhalinin Mesopotamiyadan şimala, Azərbaycana doğru miqrasiyası ilə bağlayırlar. Ola bilsin ki, bu tip keramika müəyyən əhali qrupunun cənubdan miqrasiyası ilə bağlı olmuşdur. Amma bu, qədim əkinçilik mədəniyyətlərinin digər regionlardan gətirildiyini təsdiq etmir. Hər şeydən əvvəl, bu regionda insanlar Paleolit dövründən məskunlaşmışlar. Samanlı keramikanın istehsalı isə Neolit dövründən başlanmışdır. Digər tərəfdən, istehsal vərdişləri Azərbaycanda Şərqi Anadoluda olduğu qədər saxlanmamışdır. Belə nəticəyə gəlmək olar ki, Şimali Mesopotamiya mədəniyyətlərinin təsiri iqtisadi-mədəni əlaqələr nəticəsində meydana çıxmışdır. Lakin Ovçular təpəsindən aşkar olunmuş fauna qalıqlarının araşdırılması miqrasiya proseslərinin də müəyyən rol oynadığını təsdiq edir.

Naxçıvanın Son Eneolit mədəniyyətinin tədqiqi Ubeyd mədəniyyətinin bu regiona təsir etdiyini göstərir. AMEA Naxçıvan Bölməsinin əməkdaşları araşdırma zamanı Şərur Rayon Tarix-Diyarşünaslıq Muzeyindən bir ədəd Ubeyd tipli boyalı kasa aşkar etmişlər. Naxışlar qabın cilalanmış səthinə qırmızı boya ilə çəkilmişdir. Naxışlar kasanın ağzının kənarına çəkilən enli zolaqdan ayrılan şüaşəkilli ornamentlərdən ibarətdir. Bu tip naxışlama Ubeyd mədəniyyəti üçün xarakterik olub, onun müxtəlif mərhələlərində istifadə edilmişdir.

Naxçıvan ərazisində 2011-2015-ci illərdə aparılan araşdırmalar zamanı Ubeyd mədəniyyətinin izlərinə Ovçular təpəsində, Uçan Ağıl və Uzun oba yaşayış yerlərində də rastlanmışdır. Ovçular təpəsindən aşkar edilən keramika parçası qırmızı rənglə naxışlanmışdır. Naxışlar birbaşa qabın boyanmamış səthinə çəkilmişdir. Onlar şaquli xətlər arasına alınmış düz xətlər və birləşik üçbucaqlardan ibarətdir. Araşdırmalar bu keramika parçasının idxal edilmiş gil qaba aid olduğunu göstərir. Sirab ətrafında aparılan araşdırmalar zamanı yeni abidələr qeydə alınmış və onların birində – Uçan Ağıl yaşayış yerində Ubeyd tipli idxal mallarına rastlanmışdır. Onlar kasa tipli qabların parçalarıdır. Qabların biri içəridən, digəri isə xaricdən qəhvəyi rənglə çəkilmiş xətlərlə naxışlanmışdır. 2015-ci ildə Uçan Ağıl və Uzun oba yaşayış yerlərindən aşkar olunan boyalı keramika nümunələrində Xalaf-Ubeyd və Dalmatəpə mədəniyyətinin təsiri özünü göstərir və bu, Naxçıvanın qədim sakinlərinin Azərbaycanın cənub bölgələri, həmçinin Şimali Mesopotamiya ilə sıx bağlı olduğunu təsdiq edir.

Ovçular təpəsindən aşkar olunan heyvan qalıqlarının araşdırılması onların vaxtilə qədim əkinçilik mədəniyyətlərinin ardınca Naxçıvana gətirildiyini təsdiq edir. Lakin onlar müəyyən dəyişikliyə uğrayaraq yerli şəraitə uyğunlaşmışlar. Ümumiyyətlə, son illər artan faktlar İkiçayarasının qədim əkinçilik mədəniyyətlərinin Cənubi Qafqaz, o cümlədən Naxçıvan ərazisində formalaşan mədəniyyətlərə müəyyən təsir etdiyini təsdiq edir. Bu təsir müəyyən istehsal sahələrinin inkişafını stimullaşdırmışdır. Belə nəticəyə gəlmək olar ki, Naxçıvan abidələrində yayılan boyalı keramika Ubeyd mədəniyyətinin təsiri ilə ortaya çıxmışdır.

*Araşdırmalar göstərir ki, İkiçayarası tayfalarının Naxçıvanla iqtisadi-mədəni əlaqələrini gücləndirən əsas faktorlardan biri bu ərazinin təbii sərvətləri, xüsusilə mis yataqları olmuşdur. Sirab ətrafında qeydə alınan Zirincli, Uçan Ağıl və digər yaşayış yerlərində mis filizinin minerallarına rastlanması, Zirincli yaşayış yerində isə mis baltalar tökmək üçün qəlibin aşkar olunması bunu bir daha təsdiq edir. Demək olar ki, Eneolit mədəniyyətinin Naxçıvanda yayılmasında və Mesopotamiya ilə iqtisadi-mədəni əlaqələrin güclənməsində xammal ehtiyatlarına tələbatın artması da müəyyən rol oynamışdır.*

*Araşdırmalar davam edir.*

✍ **Sara ƏZİMOVA**

***Muxtar respublikamızda təhsil sahəsində əldə olunan uğurlar ilbəil artır. Ölkəmizin sürətli inkişafı, təhsilə göstərilən dövlət qayğısı gənclərin elm, təhsil yollarında uğurla addımlaması, gələcək cəmiyyət quruculuğunda Azərbaycanın daha da qüdrətli olması yolunda hər bir imkan yaradıb.***

## Şahbuzlu məzunların ali məktəblərə qəbul nəticələri sevindiricidir

Şahbuz rayonunda istifadəyə verilən yeni təhsil ocaqları, yeniləşən təhsil infrastrukturu məntiqi olaraq özünü ali məktəblərə qəbul olunan gənclərin sayının artmasına, onların yüksək nəticələr göstərməsinə imkan yaradır. Cari ildə başa çatmış ali məktəblərə qəbul kampaniyasının nəticələrinə əsasən onu deyə bilərik ki, bu il də Şahbuz rayonunda qəbul nəticələri sevindiricidir.

Şahbuz tarixən tanınmış ziyalıların doğulub boya-başa çatdığı yer olub. Bu ənənə indi də davam etdirilir. Hər il Şahbuzda təhsil alan şagirdlərin yüksək ballarla ali məktəblərə qəbul olması bu fikri bir daha təsdiq edir. Ali məktəblərə builki qəbulda Şahbuz rayonu üzrə 136 nəfər sənəd verərək, 83 nəfər tələbə adını qazanıb. Onlar arasında yüksək nəticələr göstərənlər də çoxdur. Belə ki, məzunlardan 21 nəfəri 500 baldan yuxarı, 9 nəfəri isə 600 baldan yuxarı nəticələr göstərib. Bu da onların ailələrini və müəllimlərini xeyli sevindirib.



Səfa Rzayeva qəbul imtahanlarında 672 bal toplayıb. Bu, cari ildə Şahbuz rayonu üzrə ən yüksək nəticədir. O, Kükü kənd tam orta məktəbinin məzunudur. Məktəbi qızıl medalla bitirib. Naxçıvan Dövlət Universitetinin Hüquq fakültəsinə daxil olub. Səfa sadə kəndli ailəsində böyüyüb. Valideynləri təsərrüfatla məşğul olurlar. Onunla söhbətdə bildirir ki, ən böyük arzusu qanun keşikçisi kimi cəmiyyətimizə faydalı olmaqdır. İlk arzusuna çatıb. Amma qarşıda daha məsuliyyətli bir dövr vardır. Tələbə adını qazanmaqla iş bitmir. Daha çox oxumalı, öz üzərində işləməli, ən azı iki xarici dil öyrənməlidir. Qazandığı bu uğurlara görə dövlətimizə çox minnətdardır. Çalışacaq ki, valideynlərini, ona dərs demiş müəllimləri bundan sonra da sevindirsin.



Xəyalə Fətəlixanlı Yuxarı Qışlaq kənd tam orta məktəbini bitirib. 671 balla Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinə daxil olub. Dediyinə görə, hələ kiçik yaşlarından həkim olmaq istəyib. Gələcəkdə universiteti bitirib, doğma kəndində həkim kimi çalışmaq istəyir. Xəyalə qazandığı uğurlara görə ibtidai sinifdən məktəbi bitirənə qədər ona dərs demiş bütün müəllimlərə çox minnətdardır. Yaxşı həkim necə olmalıdır? – soruşduqda Xəyalə deyir ki, bunun üçün, ilk növbədə, vətənpərvər olmalı, insanların sağlamlığının keşiyində durmalıyam. Bu isə çox məsuliyyətlidir. Çünki ölkəmizdə insan amilinə, sağlamlığa çox ciddi diqqət yetirilir. Bunun üçün də yaxşı həkimlərə həmişə ehtiyac vardır.



Digər bir həmsöhbətim Dilarə Şahgəldiyeva isə Şahbuz şəhərindəndir. Buradakı bir nömrəli tam orta məktəbi bitirib. 650 balla Naxçıvan Dövlət Universitetinin İngilis dili müəllimliyi ixtisasına daxil olub. Dilarə deyir ki, dil öyrənməyi çox sevir: bilirəm ki, inkişaf edən ölkəmizin, muxtar respublikamızın xarici ölkələrlə yaxın əlaqələri vardır. İngilis dili də beynəlxalq dildir. Hara getsən, hansı ölkəyə səyahət etsən, orada ingilis dili işlənir. Dilarə onu da qeyd edir ki, istənilən xarici dili öyrənmək üçün ana dilimizi yaxşı bilməliyik. Bunun üçün Azərbaycan dilinin bütün incəliklərinə yaxşı bələd olmaqla ingilis dilini daha dərindən öyrənməyə və gələcəkdə bu sahə üzrə yaxşı mütəxəssis olmağa çalışacağam. Qloballaşma dövründə yaşayırıqsa, bizim də bu karvana layiqlə qoşulmağımız tələb olunur.

***“Təhsil olmadan gələcək haqqında düşünmək mümkün deyil”.*** Bu il avqustun 22-də Naxçıvan Muxtar Respublikasının ümumtəhsil məktəblərini bitirərək ali məktəblərə qəbul imtahanlarında yüksək bal toplamış tələbələrlə görüşdə Ali Məclis Sədrinin bu fikirlərində gələcəyə doğru dərin inam var. Çünki Naxçıvanda sağlam təhsil üçün hər bir şərait yaradılıb. Bu nikbinlik yaşıdlarından bir addım öndə olan şahbuzlu tələbələrlə söhbətdə bir daha möhkəmləndi. Gələcəkdə onlara harada yaşamalarından, hansı vəzifədə çalışmalarından asılı olmayaraq, əsl azərbaycanlı kimi yaşamaq və işləmək arzulayırıq. Yolunuz açıq olsun!

✍ **Əli CABBAROV**

## Naxçıvan Dövlət Rəsm Qalereyasının fondunda 400-ə yaxın rəsm əsəri vardır



Naxçıvan şəhərində fəaliyyət göstərən Naxçıvan Dövlət Rəsm Qalereyasının yaradılmasında məqsəd muxtar respublikamızda yaşayıb-yaradan rəssamların müxtəlif janrlarda işlədikləri əsərlər haqda rəsm həvəskarlarına məlumat vermək, rəsm əsərlərini qoruyub saxlamaq və gələcək nəslə çatdırmaqdır. Ümummilli lider Heydər Əliyevin adını daşıyan sarayın əsaslı təmirindən sonra binanın üçüncü mərtəbəsində rəsm qalereyası üçün geniş ekspozisiya zalı, iş otaqları, rəsm əsərlərinin mühafizəsi üçün fond, rəssam emalatxanası qalereya əməkdaşlarının ixtiyarına verilib.

Bu günlərdə həmin ünvanda olduq. Qalereya ilə bizi yaxından tanış edən direktor Hökümə Məmmədli bildirdi ki, hazırda 70-dən çox rəssamın 400-ə yaxın rəsm əsəri qalereyanın fondunda mühafizə olunur. Bu əsərlərdən 80-i ekspozisiya zalında sərgilənib.

Sərginin birinci guşəsində ulu öndər Heydər Əliyevə həsr edilmiş rəsm əsərləri özünə yer alıb. Bu rəsmlərdə Azərbaycanın müstəqilliyi və sonrakı dövrdə bayrağımızın zirvələrdə dalğalanması böyük ustalıqla təsvir edilib.

Ekspozisiyanın ikinci guşəsi tarixi-mədəniyyət abidələrinə həsr edilib. Burada ulu keçmişimizdən soraq verən abidələrimiz rəssam təfəkkürünün gücü ilə kətana köçürülüb. Naxçıvanın füsunkar gözəlliklərini əks etdirən və mənzərə janrında çəkilmiş əsərlər üçüncü guşədə sərgilənib. Xalça Muzeyi tərəfindən hədiyyə edilən, XX əsrə məxsus rəngli saplarla toxunmuş xalçalar da ekspozisiyaya daha bir gözəllik bəxş edir.

Qalereyada 2012-ci ildən başlayaraq Naxçıvanda keçirilən “Naxçıvan – Bəşəriyyətin beşiyi” adlı beynəlxalq rəsm festivallarında iştirak edən xarici ölkə rəssamlarının hədiyyə etdikləri əsərlər də özünə yer alıb.

Rəsm qalereyasına ölkəmizin digər bölgələrindən üz tutan qonaqlarla yanaşı, xarici ölkələrdən turistlər də gəlirlər. Qonaqlar “Mömünə xatın”, “Naxçıvan abidələri”, “Qarabağlar türbəsi”, “Yusif Küseyir oğlu türbəsi”, “İmamzadə” və digər rəsm əsərlərinə tamaşa etdikcə Naxçıvanın qədim tarixə malik olduğunu görürlər.

**Telli MUSTAFAYEVA**

*Həkim məsləhəti*

## Yay fəslində uşaqların qidalanması və onlar arasında rast gəlinən xəstəliklər

***Hər bir xalqın, dövlətin, ailənin ən böyük sərvəti uşaqlardır. Onlar bizim sevincimiz, xoşbəxtliyimiz, gələcəyimizdir. Uşaq o zaman ailəyə sevinc, xoşbəxtlik bəxş edir ki, o, sağlam doğulsun, sağlam böyüsün, xəstələnməsin, həmişə gümrah olsun. Ona görə də ilboyu, fəslindən asılı olmayaraq, uşaqlar diqqət və qayğıya möhtacdır.***

Yay fəslinin isti keçməsi ilə əlaqədar olaraq uşaqlar arasında az da olsa, mədə-bağırsaq xəstəliklərinə rast gəlmək mümkündür. Buna əsas səbəblər kimi bəzən uşağa ana südünün az verilməsini, isti vaxtlarda xəstəliktörədən mikroorqanizmlərin aktivliyinin artmasını, ərzaq məhsullarının düzgün saxlanmamasını, uşaqların və valideynlərin sanitar-gigiyena qaydalarına düzgün riayət etməmələrini, anaların uşaqları düzgün qidalandırmamalarını göstərmək olar. Eyni zamanda uşaqlarda mədə-bağırsaq sisteminin zəif olmasının, həzm fermentlərinin kifayət qədər olmamasının da xəstəliklərin əmələ gəlməsində böyük rolu vardır. Fiziki cəhətdən zəif, hipotrofiyalı (az çəkili), raxitli, qanazlığı olan uşaqlarda yay aylarında xəstələnmə riski yüksək olur.

Uşaqların sağlam və normal böyümələri üçün əsas məsələlərdən biri onların yaşa uyğun və səmərəli qidalanmasıdır. Kiçik yaşlarda, xüsusən südəmər dövrdə mədə-bağırsaq xəstəliklərinin əmələ gəlməməsi üçün, ilk növbədə, ana südü ilə qidalanma düzgün təşkil edilməlidir. Analar öz uşaqlarına mümkün qədər süd verməlidirlər. Müqəddəs kitabımız "Qurani-Kərim"də məsləhət görüldüyü kimi, 2 il ərzində ana öz uşağına süd verməlidir. "Kitabi-Dədə Qorqud" dastanında "Ana südü, dağ çiçəyi" fəslində ana südü müqəddəsləşdirilir, məlhəm olması vurğulanır. Çünki ana südü uşaq üçün əvəzsiz qidadır. Onun tərkibindəki qida maddələri – zülallar, karbohidratlar, yağlar, mineral maddələr bir-birinə elə nisbətdədirlər ki, onlar uşaq orqanizmində tez sorulur. Ana südünün tərkibində anticisimciklər var ki, onlar uşaqları müxtəlif xəstəliklərdən qoruyur. Eyni zamanda ana südü vasitəsilə bir çox genetik informasiyalar da uşaq orqanizminə keçir ki, bu da gələcəkdə şəxsiyyətin formalaşmasında böyük rol oynayır.

Ümumdünya Səhiyyə Təşkilatının araşdırmalarına görə, ana südü ilə qidalanan uşaqlar süni qidalananlara nisbətən 27 faiz az xəstələnir, xəstələndikdə isə xəstəliyi yüngül keçirirlər. Ana südündə eyni zamanda sakitləşdirici komponentlər var ki, uşaq qorxanda, ağlayanda onu sakitləşdirir. Ana südü ilə yanaşı, 6 aylığından kartof, tərəvəz pürelərindən, yağsız suplardan, müxtəlif sıyıqlardan istifadə edilməlidir.

Ana südü az olduqda və ya heç olmadıqda analar müxtəlif heyvani südlərdən: keçi, inək və müxtəlif uşaq yeməklərindən düzgün istifadə etmirlər. Bu da uşaqda mədə-bağırsaq pozğunluğuna səbəb olur. Yaxşı olar ki, belə vaxtlarda uşaq həkimi ilə məsləhət olunsun. Lakin uşaq yeməkləri verilərkən də sanitar-gigiyenik qaydalara, onların saxlanmasına ciddi diqqət etmək, bir sıra zərərli qidalardan verməmək lazımdır.

Bu gün uşaqların ən çox sevdikləri qidalardan: müxtəlif qazlı şirələr (fanta, kola, limonadlar), acılı-şirinli cipslər, ev şəraitində bişirilməyən dönərlər, hamburgerlər, qutablardan mütəmadi istifadə etdikdə uşaq orqanizmində müxtəlif patologiyalar əmələ gəlir. Məsələn fanta, kola və limonadların tərkibində müxtəlif konservantlar var ki, uşaqlar bu içkilərdən çox istifadə etdikdə bağırsaqlarda iltihab yaradır, mədənin selikli qişasının qıcıqlanması nəticəsində turşuluğun miqdarı artır, bu da yara və xoraların əmələgəlmə riskini artırır. Həmçinin şirələrin tərkibindəki şəkərin artıqlığı iştahanın pozulmasına və boy artımının ləngiməsinə səbəb olur. Müxtəlif növ kartof qızartmaları, ketçup kimi qida əlavələrini mütəmadi qəbul etdikdə zərərli nəticələri olur. Qeyd edək ki, 100 qramlıq bir paket cipsdə 25-33 qram yağ vardır, bundan uzun müddət istifadə etdikdə bu, uşaqların tez kökəlməsinə və gələcəkdə şəkərli diabetin əmələ gəlməsinə və damar tıxanmaları riskininin artmasına səbəb olur. 170-180 dərəcədə bişirilən bu kartof qızartmalarından sonra həmin yağların tərkibi dəyişir, onlarda zərərli maddələr əmələ gəlir. Bu da uşaqların mədə-bağırsaqlarında iltihabi proseslərin güclənməsinə, qusma və ishala səbəb olur.

Uşaqlar arasında mədə-bağırsaq xəstəlikləri, sadə və toksiki dispepsiyalar, dizenteriyalar, salmonellyozlar, eşerixlər müxtəlif etiologiyalı bağırsaq infeksiyaları, qida zəhərlənmələrinə rast gəlinir. Uşaqları qidalandırarkən yaşa fikir verilməlidir. Əks-təqdirdə, sadaladığımız xəstəliklərlə üzləşmək qaçılmaz olar. Uşaqları yaşa uyğun düzgün qidalandırmaqla yanaşı, sanitar-gigiyenik tələblərə də əməl etmək lazımdır. Zərərli həşəratların məhv edilməsi, xüsusən uşaqlar oynadıqdan, məktəbdən gəldikdən sonra əllərin mütləq sabunla yuyulması, döşəkağıların, əl-üz dəsmallarının təmiz və fərdi olmasına fikir verilməlidir. Məktəb və uşaq bağçalarında dezinfeksiyaedici məhlullardan istifadə edilməlidir.

Mədə-bağırsaq xəstəliklərinin hamısı, demək olar ki, eyni simptomlarla başlayır: narahatlıq, ürəkbulanma, qusma, qarında diskomfortun olması və bəzən hərarətin qalxması. Bütün bu simptomlara analar diqqətlə yanaşmalı və həkimə qədər uşaqlara ilk yardımlar edilməlidir. Belə ki, uşaq dərhal çobanyastığı dəmləməsi və ya ılıq su ilə təmizləyici imalə edilməli, uşağa qida verilməsi bir neçə saat ərzində dayandırılmalı (ana südündən başqa), limonlu çay, rehidron məhlulu verilməlidir. Əgər hərarət yüksəkdirsə, uşağa ılıq vanna edib, parasetamol vermək və uşaq həkiminə müraciət etmək lazımdır.

Yay ayları uşaqların orqanizmlərinin möhkəmlənməsi, immunitetin səviyyəsinin artırılması üçün hər cür meyvə-tərəvəzlə zəngin, Günəş şüaları ilə bol aylardır. Bu aylardan valideynlər uşaqlar üçün daha səmərəli istifadə etməlidirlər.

Əziz analar, uşaqlarınızı yay aylarında mədə-bağırsaq xəstəliklərindən qorumaq üçün onların düzgün qidalanmasına, şəxsi gigiyena qaydalarına riayət edilməsinə, ana südündən səmərəli istifadə olunmasına geniş diqqət etməlisiniz. Gələcəyimiz olan uşaqlara diqqət və qayğı hamımızın müqəddəs borcudur.

**İbrahim AĞAYEV**
***Azərbaycan Respublikasının Əməkdar həkimi***

## 23 sentyabr 2016-cı il tarixdə Naxçıvan şəhərində hərraca çıxarılacaq müəssisələr haqqında məlumat

| Sıra №-si | Müəssisənin adı | Ünvanı | İstismara verildiyi il | Obyektin tam dəyəri 100 % | Obyektin satış qiyməti | Behin həcmi 10 % |
|---|---|---|---|---|---|---|
| 1. | "Sədərək Taxıl Emalı Müəssisəsi" MMC | Sədərək rayonu | 2004 | 122201,46 | 122201,46 | 12220,15 |
| 2. | "Dəstə Taxıl Emalı Müəssisəsi" MMC | Ordubad rayonu, Dəstə kəndi | 2005 | 104832,00 | 104832,00 | 10483,20 |

**Qeyd:** Hərraclar Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində hərrac komissiyası tərəfindən keçirilir. Hərracda iştirak etmək üçün komissiyaya aşağıdakı sənədlər hərracın başlanmasına ən geci 3 (üç) bank günü qalanadək təqdim olunmalıdır:

*1.Sifarişçinin şəxsiyyətini təsdiq edən sənəd*

*2. Müəyyən edilmiş formada sifariş*

*3. Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən müəyyən edilmiş 10 faiz məbləğində behin Azərbaycan Respublikası Mərkəzi Bankının Naxçıvan Muxtar Respublikası İdarəsindəki AZ30NABZ12360150000000065944 nömrəli hesabına ödənildiyi haqda qəbz.*

***Ünvan: Naxçıvan şəhəri, Atatürk küçəsi 42***
***Əlaqə nömrəsi: 545-01-38, 545-02-36***

***Naxçıvan şəhərində qədim musiqi alətlərinin düzəldilməsi ilə məşğul olan İxtiyar Seyidovun "səntur" adlı musiqi aləti üzərində işlədiyini eşitmişdik. Bu günlərdə onunla sexdə görüşüb bu mövzuda həmsöhbət olduq, bu alət haqqında onun da fikirlərini öyrəndik:***

## Azərbaycan sənturu



– Səntur yatıq sazlar ailəsinə məxsusdur. Toxmaqla çalındığına görə həm simli, həm də zərb aləti sayılır. Qanun, nüzhə və bu növ alətlərdən hesab edilir. Yatıq sazların müxtəlif növləri, əsasən, Şərq və Qərb ölkələrində geniş yayılmışdır. Ən qədim və sadə nümunələrinə Tuva və Xakasiya xalqları arasında rast gəlmək olar. Osmanlı türklərində iki növ səntur mövcud olub – alafranqa və türk sənturları. Quruluşuna, çalğı tərzinə, səs düzümünə və başqa cəhətlərinə görə sənturun bu növləri birbirinə çox yaxındır.

Səntur xarici görünüşünə görə trapeşəyaşəkilli taxta qutuya oxşayır. Alət 9 və 12 xərəkli olaraq düzəldilir. İxtiyar Seyidov bildirdi ki, bu ilin fevral ayından səntur üzərində işləməyə başlayıb. Səs sisteminə toxunmadan onu milli atributumuz olan buta formasına salıb. Aləti "Azərbaycan sənturu" adlandırıb.

9 xərəkli Azərbaycan sənturunun ixtiraçısı olan həmsöhbətim bu alətin 12 xərəkli nümunəsini də yaratmağın gələcək planları arasında yer aldığını, bununla yanaşı, o, Naxçıvan tənburu və ovuc neyi alətləri üzərində də çalışdığını qeyd etdi. Dedi ki, bəzi qədim alətlər orkestrlə ayaqlaşa bilmir. Bu baxımdan da həmin alətlər təkmilləşdirilməlidir.

Alətlərin düzəldilməsi, təkmilləşdirilməsi sahəsində gördüyü işlərə görə 2014-cü ildə "Naxçıvan Muxtar Respublikasına xidmətlərə görə" nişanı ilə təltif olunan, gününün çox hissəsini burada – qədim musiqi alətlərinin hazırlanma sexində keçirən İxtiyar Seyidov onu da bildirdi ki, bu gün gənclərimizin qədim musiqi alətlərinə marağının artması onu çox sevindirir. Çünki bu alətlər bizim maddi-mədəniyyət nümunələrimizin tərkib hissəsidir. Onları qorumalı və gələcək nəsillərə çatdırmalıyıq.

Bəli, milli dəyərlərimizin bir parçası olan musiqimizin, musiqi alətlərimizin tanınması çox vacib və lazımlı bir işdir. Necə ki dünyaya səs salıb hər kəsə mugamın bizə məxsus olduğunu sübut edə bildik, bizə məxsus musiqi alətlərinin təbliğini də ən yüksək şəkildə həyata keçirməli, dünyanın onları bizim milli alətlərimiz kimi tanımasına müvəffəq olmalıyıq. Bu sahədə səy göstərmək hər birimizin borcudur.

**✍ Fatma BABAYEVA**

## Uşaqların asudə vaxtı səmərəli təşkil edilir



Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı"nın icrası ilə bağlı sağlamlıq imkanları məhdud uşaqların, eyni zamanda valideynlərini itirmiş və ya valideyn himayəsindən məhrum olmuş, eləcə də aztəminatlı ailələrin uşaqlarının asudə vaxtının səmərəli təşkili məqsədilə tədbirlər davam etdirilir.

Dünən M.T.Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrında sağlamlıq imkanları məhdud, valideyn himayəsindən məhrum və aztəminatlı ailələrin uşaqları üçün Nağı İsmayılzadənin "Ağca və Bozca" pyesi əsasında hazırlanmış tamaşa göstərilib. Tamaşaya bu kateqoriyadan olan 75 uşaq baxıb. Tamaşanın quruluşçu rejissoru Azərbaycan Respublikasının Xalq artisti Yasəmən Ramazanova, quruluşçu rəssamı Rafael Qədimov, bəstəkarı Əli Məmmədovdur. Teatrın aktyorları İlham Babayevin (Bozca), Şölə Novruzbəylinin (Ağca), Süleyman Süleymanovun (Xoruz), Mir Qabil Əkbərovun (Tülkü) və başqalarının canlandırdıqları surət və personajlar uşaqlarda şən nağıl dünyasına səyahət yaratmaqla maraqla qarşılanıb.

**Əli RZAYEV**

## Karate-do üzrə birincilik keçirilib

*Şərur Rayon Gənclər və İdman İdarəsi ilə Naxçıvan Muxtar Respublikası Karate-do Federasiyasının birgə təşkil etdiyi yeniyetmələr arasında karate-do üzrə açıq birinciliyə yekun vurulub.*

"Zərərli vərdişlərə yox deyək, həmişə sağlam olaq" devizi altında keçirilən birincilikdə Şərur rayonunun idmançıları ilə yanaşı, Kəngərli və Sədərək rayonlarının idmançıları da iştirak ediblər.

Tədbirdə 70-dən artıq idmançı qüvvəsini sınayıb və idmançılar beş yaş qrupu üzrə mübarizə aparıblar. Gərgin və maraqlı keçən mübarizədən sonra 6-7 yaş qrupunda Həbib Əhmədov, 8-9 yaş qrupunda Uğur Əsgərov, 10-11 yaş qrupunda Kənan Vəliyev, 12-13 yaş qrupunda Rövşən Nəcəfov, 14-15 yaş qrupunda isə Emin Nəcəfov birinci yerə layiq görülüblər.

Qaliblərə təşkilatçılar tərəfindən diplomlar təqdim olunub.

***Şahbuz və Babək rayonlarının şahmat məktəblərinin dərnək üzvləri arasında yoldaşlıq görüşü keçirilib. Görüş 12 yaşa qədər və 12 yaşdan yuxarı yaş qrupunda olan şahmatçılar arasında təşkil edilib.***

## Şahmatçılar arasında yoldaşlıq görüşü

Yoldaşlıq görüşünün iştirakçıları əvvəlcə Şahbuz Rayon Tarix-Diyarşünaslıq Muzeyində olublar. Muzeydə şagirdlərə eksponatlar haqqında geniş məlumat verilib. Rayonun uşaq-gənclər şahmat məktəbində keçirilən görüş başlamazdan əvvəl çıxış edən Şahbuz Rayon Gənclər və İdman İdarəsinin məsləhətçisi İdris Qəhrəmanov, Babək Rayon Uşaq-Gənclər Şahmat Məktəbinin dərs hissə müdiri Zakir Quliyev və Şahbuz Rayon Uşaq-Gənclər Şahmat Məktəbinin direktoru Əli Gülmalıyev yarış iştirakçılarına tədbirin mahiyyəti barədə danışıblar.

Hər komandanın tərkibində 16 şahmatçı olmaqla, 32 şahmatçı gərgin mübarizə aparıb. Sonda 12 yaşa qədər yaş qrupunda Şahbuz Rayon Uşaq-Gənclər Şahmat Məktəbinin dərnək üzvləri, 12 yaşdan yuxarı yaş qrupunda isə Babək Rayon Uşaq-Gənclər Şahmat Məktəbinin dərnək üzvləri qalib gəliblər. Hər iki komandaya və fərqlənən şahmatçılara yarış təşkilatçılarının diplomları verilib.

**✍ Ceyhun MƏMMƏDOV**

***İtmişdir***

Naxçıvan şəhəri, N.Nərimanov küçəsi, ev 14-də qeydiyyatda olan Bayramov Rövşən Novruz oğlunun adına olan 1438 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Məsul katib:
Muxtar Məmmədov

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Kərəm Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1050. Sifariş № 637